# İçərişəhərdə yeni "Xəzinə"

**Paytaxtın "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşəbbüsü, "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin dəstəyi ilə Azərbaycanda zərgərlik sənəti və numizmatika nümunələrinə həsr edilən "Xəzinə" muzey ekspozisiyası açılıb.**



UNESCO-nun ümumdünya mədəni irs siyahısına daxil edilmiş Şirvanşahlar Sarayı Kompleksində ziyarətçilərə təqdim olunan qədim dövrlərə aid bəzək məmulatları, pul nişanları, eləcə də müasir dövlətimizin iqtisadi qüdrətinin göstəricilərindən biri hesab edilən, ən yeni texnologiyalar əsasında hazırlanmış sikkələr ölkəmizin qədim zərgərlik ənənələrinin və numizmatika irsinin təbliği baxımından mühüm əhəmiyyət daşıdığının bariz göstəricisidir. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə ekspozisiyanın açılış mərasimində bildirib ki, bir çoxu ilk dəfə nümayiş olunan nümunələr antik dövrdən XX əsrə qədər böyük bir zamanı əhatə edir. Sərgilənən 100 yaxın eksponatın hamısı maddi-mədəni irsimizin daşıyıcısıdır, onlardan ən dəyərlisi isə eramızdan əvvəl II minilliyə aid tunc kəmərdir.

"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov isə ölkəmizdə milli zərgərlik sənətinə həsr olunmuş muzey ekspozisiyasının ilk dəfə yaradılmasına diqqət çəkib. Qədim qala divarları ilə əhatə olunmuş əsrarəngiz İçərişəhərdə qədim dövrlərdən üzübəri ərsəyə gətirilmiş zərgərlik və numizmatika nümunələri hərəsi bir tarixin yadigarıdır. QSC sədrinin sözlərinə görə, bu, bir tərəfdən, milli-mədəni dəyərlərimizə hörmət və ehtiramı, digər tərəfdən, keçmiş dövrlərdən formalaşmış milli zərgərlik ənənələrimizin yaşadılması və təbliğinə verdiyimiz önəmi özündə ehtiva edir. Zakir İbrahimov "Xəzinə" muzey ekspozisiyasının həm vətəndaşlarımızın, həm də ölkəmizə səfər edən xarici qonaqların daim ziyarət etdiyi turistik obyektlərdən birinə çevriləcəyinə, sərgilənən eksponatların isə hər kəsin böyük marağına səbəb olacağına əminliyinə ifadə edib.

Mərasim çərçivəsində, həmçinin "AzerGold" QSC-nin İçərişəhərə həsr etdiyi qızıl sikkə kolleksiyasının təqdimatı olub. Maraqlıdır ki, "İçərişəhər" qızıl sikkə nümunəsində təkcə paytaxt Bakının deyil, ümumilikdə Azərbaycan memarlığının inciləri hesab edilən Şirvanşahlar Sarayı, Qız Qalası, Şah məscidi, Qoşa Qala qapıları, eləcə də İçərişəhərin memarlıq ansamblına daxil olan digər abidələr öz əksini tapıb.

Sonra tədbir iştirakçıları "Xəzinə" muzey ekspozisiyasında yer alann zərgərlik sənəti və zəngin numizmatika nümunələri ilə yaxından tanış olublar.

***XQ***

Xalq qəzeti.- 2024.- 23 may, № 107.- S.10.